Ədalət.- 2020.- 24 sentyabr. S. 6.



# ONUN ƏSƏRLƏRİ DƏ ŞƏXSİYYƏTİ KİMİ BÜTÖV İDİ

**İstedadlı şair, yazıçı və dramaturq, respublikanın Əməkdar incəsənət xadimi, Azərbaycan nəsrində öz dəst-xətti olan Məmmədhüseyn Əliyev 1924-cü ildə Lerik rayonunun Gürdəsər kəndində anadan olmuşdur. O, Lerikdə müəllim, məktəb direktoru Lənkəran Pedaqoji və Tibb Texnikumlarında müəllim, tədris hissə müdiri, Lənkəran radio verilişləri redaksiyanın redaktoru işləmişdir. M.Əliyev 1994-cü ilin iyun ayının altısında dünyasını dəyişmiş, ömrünün sonuna kimi yaşadığı Azərbaycan Yazıçılar Birliyinin Lənkəran zona şöbəsinə rəhbərlik etmişdir. 1991-ci ildə " Şəfəq" jurnalının ilk naşiri və baş redaktoru olmuşdur.**

Bədii yaradıcılığına şeirlə başlayan Məmmədhüseyn Əliyevin ilk şeirləri 1947-ci ildə Lerikdə nəşr olunan " Kolxoz yolu" qəzetində dərc edilmişdir. Qələmə ilhamla sarılan gənc şair çoxlu rübai yazmış, çoxlu şeir, qəzəl, qəsidə, mərsiyə, hekayə, resenziya, elmi-tənqidi, publisistik yazılar qələmə almışdır.

Unudulmaz sənətkarın 1947-1955-ci illərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, böyük sərkərdə, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov haqqında yazdığı " Vətənin keşiyində" poeması Azərbaycan radiosunda səsləndirilib. Bu poemanı Vladimir Qafarov rus dilinə tərcümə etmişdir. " Şöhrət" adlı dörd pərdəli mənzum dramı əsasında " Prokuror" adlı nəsr əsəri N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. "Ana fəryadı" əsərinə respublikanın Əməkdar incəsənət xadimi, istedadlı rejissor və teatrşünas Baba Rzayev səhnə həyatı vermişdir.

Məhsuldar bədii yaradıcılığı ilə fərqlənən Məmmədhüseyn Əliyevin respublikamızın və xarici ölkələrin qırxa yaxın mətbuat orqanlarında müxtəlif səpkili bədii, publisistik yazıları dərc olunmuşdur. İraqın "Əl-əhram" qəzetində dərc olunmuş "Ey ana Bağdad" şeirinə görə 1988-ci ildə mükafata layiq görülmüşdür. Şair bu şeiri Bağdad poeziya festivalında oxumuşdur. Tükənməz istedadı, ziyalılığı, yüksək in-




tellekt sahibi olması ilə həmişə fərqlənən Məmmədhüseyn Əliyevin "Sovetski Pisatel" nəşriyyatında "Dağlar oğlu", "Torpağın ətri", "Qayaların səsi", romanları, respublikamızın nəşriyyatlarında "Dağlar oğlu", "Dağda bahar", "Lənkəran hekayələri", "Müstəntiq", "Döyüşən illər", "Torpağın ətri", "Qayaların səsi" romanı və povestləri çap olunmuşdur.

***Bu əsərlərdə adamların döyüşkən ruhu, torpağa sevgi dağlarımızın vüqar və əzəməti, Azərbaycan təbiətinin əsrarəngiz gözəllikləri, Vətən sevgisi, ucalığa çağırış və saf məhəbbət öz əksini tapmışdır.***

## *Yüz rübai çələngi*

Yazıçı və dramaturq Məmmədhüseyn Əliyev bədii yaradıcılığa şeirlə başlamışdır. O, 1947-ci ildə yazdığı "Durnalar" şeiri ilə ədəbiyyata gəlmiş, həmin şeir "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuşdur. Beləliklə, 1947-1956-cı illərdə yazıçının qələmə aldığı yüzlərlə şeiri, poemaları mətbuatda oxucuların rəğbətini qazanmışdır. Şairin atası Axund Rüstəm Qurbanəli oğlu İraqın Nəcəf şəhərində mükəmməl ruhani təhsili almışdı. Sovetlər dövründə dəfələrlə təqib olunmuş, həbs edilmişdi. O, təkcə din xadimi yox, dünyəvi elmlərə malik dərin düşüncə sahibi olmuşdur. Təqiblərə dözməyən Axund Rüstəm 1927-ci ildə İrana tabe olan Ərdəbil mahalının Camayıran qəsəbəsinə köçmüş və ömrünün sonunadək orada yaşamış, 1944-cü ildə vəfat edərək orada torpağa tapşırılmışdır. Şair atasına 100 rübai həsr etmişdir. Yazıçının atasına həsr elədiyi rübailərin hər sətri oxucunu dərindən düşündürür, insanları paklığa, təmiz əqidəyə, Vətəni sevməyə, dünyanı gözəlləşdirməyə çağırır:

*Sənin qızılın var, mənimsə sözüm,*
*Tarixən çarpışıb həvəslə dözüm.*
*Kimin üstünlüyü məlum olanda,*
*Sənin külün qalar, mənimsə közüm.*

*Nə əzəli, nə sonu var dünyanın,*
*Neçə səmtə bir yolu var dünyanın.*
*Sənin donun dəyişsə də yüz dəfə,*
*Dəyişməyən bir donu var dünyanın.*

## *Poeziyadan nəsrə*

Bəşəri duyğuların kəskin ifadəsi, insanların duyğu və davranışları, ədalətin, düzlüyün, saflığın həmişə uca tutulması, insanların yeni həyat uğrunda mübarizəsi, ziddiyyətli münasibətləri, mürəkkəb məsələlərin həlli, estetik hisslərin səmimi tərənnümü yazıçının əsərləri üçün xarakterik olan xüsusiyyətləridir. O, əsərlərində təsvir etdiyi personajlarla sanki yol gedir, onların daxili düşüncə və istəklərini duyur, mübarizə aparır, döyüşür, səhvlərini başa düşür, nəticə çıxarmağa tələsmir. Baş verən hadisələri özü müşayiət edir, öz qəhrəmanlarının və oxucularının arasında yaşayır. Onların hiss və həyəcanlarını, arzu və düşüncələrini, mübarizəsini qələmə alır. Məsələn, "Qayaların səsi" ( əvvəlki adı "Gəray müəllimin səhvi" olmuşdur) romanı daha çox diqqəti cəlb edir. Əsər məktəb və müəllim həyatından bəhs edir. Roman avtobioqrafik səciyyə daşıyır. Əsərdəki Gəray müəllim elə onun özüdür. Yazıçı Məmmədhüseyn Əliyev bir müddət Lerikdə, Lənkəranda müəllim işləmişdir. Onun üçün həqiqət, ədalət, mənəvi saflıq hər şeydən üstündür. Lakin o, bəzi yaramaz adamların əhatəsindədir. Ona böhtan atırlar, yolundan döndərmək istəyirlər. Ancaq həqiqət, xalqın və dövlətin müəllim əməyinə verdiyi yüksək qiymət yaltaq, savadsız, həqiqəti danan adamların dərsini verir. Gəray müəllim müsbət bir obraz kimi xalqın nəzərində ucalır. Filologiya elmləri doktoru, professor Məsudi Dövran yazıçı Məmmədhüseyn Əliyevin 80 illik yubileyi ilə əlaqədar ona monoqrafiya həsr etmişdir. Burada yazıçının həyatı, yaradıcılığı və əsərləri geniş aspektdə təhlil edilmişdir. Kitabda "Dağlar oğlu" romanı ("Sovetski pisatel" Moskva, 1982-ci il, "Gənclik" nəşriyyatı, Bakı, 1984-cü il) Bu roman 1957-ci ildə "Azərbaycan gəncləri" qəzetində hissə-hissə çap olunmuşdur. Roman Pirasora kəndində 150 il yaşamış təkcə Mahmud Eyvazova yox, onun gözləri qarşısında cərəyan edən zülm və istibdada qarşı yeni dünya uğrunda üsyankar mübarizəyə güzgü tutmuş, adamların mənəvi aləminə yazıçı ustalığı ilə nüfuz edilmişdir.

**O, Azərbaycanın bir kəndindən, bir ailəsindən çıxış edərək, Mil Muğan, Gəncəbasar, Bakı, Təbriz, Talıbqışlaq və digər əyalətləri əhatə etmiş, xanların və bəylərin qəddarlığını, yoxsulların yoxsul və hüquqsuz həyatını, bir sıra inqilabi prosesləri realistcəsinə qələmə almış, bitkin bir əsər yaratmışdır.**

**(ardı növbəti sayımızda)**

**İdris Şükürlü,**
**Respublikanın Əməkdar jurnalisti**